# Şamil AYRIM: Azərbaycan – Türkiyə dostluğu sülhün və ədalətin tərəfində olub hər iki tərəfə əlavə güc qazandırır



***Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, qardaş ölkənin xarici işlər naziri Mövlud Çavuşoğlunu son günlərdə ölkəmizə səfərdə müşayiət edən Şamil Ayrım Qarabağ müharibəsi, Ermənistanın son hərbi təxribatına cavab olaraq, Azərbaycanın apardığı haqq savaşı, Azərbaycan–Türkiyə münasibətləriin tarixi mahiyyəti barədə mediaya açıqlamasında aşağıdakıları bildirib:***

– 30 ildən artıq müddətdə Azərbaycana hərbi təzavüzü davam etdirmiş, Azərbaycan türklərini Ermənistandakı tarixi torpaqlarından vəhşicəsinə və son nəfərinədək çıxartmış, qardaş ölkənin ərazisinin 20 faizini işğal etmiş düşmən dövlət yenidən beynəlxalq normalara sayğısızlıq və güc mövqeyindən çıxış edərək iki həftə əvvəl Qarabağ cəbhəsində qəfil hücuma başladı. 25–30 ildəkindən kəskin surətdə fərqli olaraq, artıq iqtisadi baxımdan qat-qat güclənmiş, möhkəm milli birliyə nail olmuş, güclü ordu yaratmış, cevik və təsirli diplomatiya aparan Azərbaycan dövləti tarixən özgələrin əlində oyuncağa dönmüş, bais olduğu müharibə səbəbindən hər cəhətdən zəifləmiş, bölgədə təklənmiş, dalana dirənmiş Ermənistanın bu təxribatını misilsiz bir əks-hücumla dəf etdi.

Azərbaycan Silahlı Qüvvələri ilk saatlardan Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik, qətiyyətli rəhbərliyi altında işğalçı ölkənin hərbi birləşmələrini inamla geri çəkilməyə məcbur etdi. Əlbəttə ki, Ermənistan son dərəcə çətin vəziyyətə düşdü. Ötən iki həftədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vuruldu. Bu itkilərdən sarsılan, köməksiz vəziyyətdə qalan düşmənin silahlı qüvvələri qarşı tərəfin mülki əhalisinə hücum edərək Azərbaycan Ordusunun diqqətini başqa bölgələrə cəlb etmək istədi.

İşğalçı Ermənistan son günlərdə öz ərazisindən Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə, energetika mərkəzi Mingəçevirə, Bakı yaxınlığındakı Xızı bölgəsinə ballistik raketlər atdı. Qarabağ cəbhəsində məğlub olan düşmən cəbhə bölgəsinin dinc əhali yaşayan bütün məntəqələrini kütləvi və davamlı artilleriya hədəfinə çevirdi. Beynəlxalq normalara zidd olan bu vəhşi hücumlar nəticəsində Azərbaycanın 30-dan artıq dinc vətəndaşı şəhid oldu, 170-dən çox günahsız insan yaralandı, mindən çox ev və tikili tam dağıdıldı.

Düşmənin namərd hücumları dinc əhalini sarsıtmadı, Bu sarsılmaz iradə, möhtəşəm dəyanət və misilsiz yurd sevgisi Azərbaycan Ordusuna əlavə güc verdi. Azərbaycanın hərbi komandanlığı da nə etdiyini çox yaxşı bildi. Azərbaycan Silahlı Qüvvələri bu birlik ruhu ilə işğal altındakı xeyli torpağı azad edərək, düşməni atəşkəs yalvarışları ilə ağ bayraq qaldırmağa məcbur etdi. İnşallah, Prezident İlham Əliyevin qətiyyətlə dediyi kimi, Ermənistan dikbaş siyasətinə, törətdiyi qanlı əməllərə görə Azərbaycandan üzr istəməli və işğalçılıq siyasətindən əl çəkilməlidir. Düşmən ölkə ən qısa müddətdə işğal etdiyi torpaqlardan geri çəkilməli, yalnız bundan sonra sülh danışıqları başlanmalıdır.

***Şamil Ayrım daha sonra bildirib ki, Türkiyə Cümhuriyyəti, Prezident Rəcəb Tayyib Ərdoğan bugünədək olduğu kimi, Qarabağ uğrunda mübarizənin sonuna qədər də Azərbaycanı dəstəkləyəcək:***

– Türkiyənin son 18 ildə apardığı siyasətə baxsanız görərsiniz ki, bu dövlət həmişə günahsızın və doğrunun tərəfində olub. Ölkəmiz haqqın tərəfdarı olduğu üçün məzluma verdiyi dəstəkdə heç bir məqsəd güdməyib. Amma can Azərbaycanın yeri bizdə bir başqadır. Azərbaycan Türkiyə ilə eyni kökdəndir və eyni bir dildə danışır. Bir əsr əvvəli xatırlasaq, gördüyümüz həqiqət bu olar ki, o zaman türk sərkərdə Nuru paşanın başçılığı altında iki qardaş xalqın birgə döyüşdüyü Qafqaz İslam Ordusu Azərbaycanımızı və Bakımızı soyqrımından qurtarıb, qardaş ölkədə qurulan dövlətin dayağına çevrilib.

Son 30 ildə isə işğalçı Ermənistan Azərbaycanın ərazisinin beşdə birini işğal edərək xarabazara çevirib, Qarabağ torpağında olan məscidləri yox edir və bəzilərində heyvan saxlayaraq sivil bir xalqın xalqın dininə, mədəniyyətinə hörmətsizlik edir. Özgə torpaqlarına sahiblənmək eşqi ilə ağlını itirmiş erməni siyasətçiləri 1 milyon insana öz vətənində qaçqın-köçkün taleyi yaşadırlar. Belə olan halda bu gün Azərbaycanın haqlı mövqeyini beynəlxalq arenada Türkiyə müdafiə etməsə, kim edəcək?

Təbii ki, Azərbaycan və Türkiyə arasındakı bu birlik bəzi dövlətləri narahat edir. Azərbaycan öz mübarizəsindədir və burada haqlı olan tərəfdir. Beynəlxalq ictimaiyyətin də Azərbaycanı dinləməsi lazımdır. Çünki, Azərbaycan bu gün öz tarixi torpaqlarını geri almaq uğrunda mübarizə aparır. Beynəlxalq hüquq da bu məsələdə Azərbaycanın tərəfindədir. Ermənistan işğalçı dövlətdir və Azərbaycan torpağlarını sözsüz, şərt qoymadan tərk etməlidir. Lakin neyləyəsən ki, bu mübarizədə Ermənistana da dəstək verən Fransa kimi dövlətlər, Azərbaycana bədxahlıq edən dairələr var.

***Bugünkü Azərbaycanla Ermənistanı ötəri də olsa müqayisə etməyin mümkünsüzlüyünü, Azərbaycan–Türkiyə dostluğunun sülhün və ədalətin tərəfində olub hər iki tərəfə əlavə güc qazandırdığını söyləyən qardaş ölkə deputatı deyib:***

– Azərbaycan nəinki Qafqaz regionunun, eyni zamanda, dünyanın inkişaf etməkdə olan sivil ölkələrindən biridir. Dost və qardaş ölkənin güclü ordusu və güclənməkdə olan iqtisadiyyatı var. Qarşı tərəfə baxdıqda isə iqtisadi durumu getdikcə çətinləşən işğalçı və terrorçu bir dövlət görə bilərik. Dünyada və Orta Şərqdə nə qədər terror təşkilatları varsa, hamısından, o cümlədən PKK-dan muzdlu döyüşçülər gətirib Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsinə yerləşdirdilər. İndi də onları Azərbaycan əsgərinə qarşı vuruşdururlar. Azərbaycan Ordusu onlara lazımlı cavabı verdi.

Ümumiyyətlə, türkün düşməni olan dairələr unudurlar ki, bu gün Türkiyə çox güclü bir dövlətdir. Azərbaycan da 30 il əvvəlki Azərbaycan deyil, Türkiyə də 30 il bundan əvvəlki Türkiyə deyil. Azərbaycan--Türkiyə dostluğunun sülhün və ədalətin tərəfində olub hər iki tərəfə əlavə güc qazandırır. Cənab İlham Əliyevin də söylədiyi kimi, Türkiyə bu gün müdafiə sənayesində yüzdə yetmiş faiz effektli və müasir gücdə olan silahlar istehsal edir. Bu uğurumuz isə Fransa kimi silah satan bəzi ölkələrə heç də xoş gəlmir.

Yeri gəlmişkən deyim ki, Fransanın ermənipərəst prezidenti Makronu qarşıda prezident seçkiləri gözləyir və o, erməni lobbisinin dəstəyini almaq üçün onlara xoş olan bəyanatlar səsləndirdi. Çox təəssüf ki, böyük bir dövlətin rəhbəri ölkəsinin bu münaqişədə Minsk qrupunun həmsədrlərindən biri kimi bitərəf qalması tələbinə xilaf çıxaraq ayrı-seçkilik etdi. O, beynəlxalq tribunada Ermənistanın işğalçı mövqeyinə və işğalçı siyasi-hərbi rəhbərliyinə dəstək göstərdi. Lakin Ermənistana olan dəstək hər ötən gün azalır, Azərbaycana olan dəstək isə artır.

Türkiyə 1991-ci ildə Sovet İttifaqı dağılanda yenicə müstəqillik qazanan dövlətlərə dəstək vermək üçün onların müstəqilliklərini tanıdı. Hətta ermənilərin çətin vaxtlarında onlara yardımlar da göndərdi, hava yollarını da açdı. Qarabağın işğalından sonra isə Türkiyə Ermənistanla diplomatik münasibətləri dondurdu və sərhədlərini bağladı. Ermənilərin türklərə qarşı qondarma “erməni soyqrımı” iddiaları var. Ermənistan konstitusiyasında da uydurma “erməni soyqrımı” ilə bağlı maddələr var. Ermənistanın nəinki təkcə Azərbaycanın, Türkiyənin də torpaqlarında gözü var. Ermənistanda yeni doğulan uşaqlara türkə düşmənçiliyi öyrədirlər. Amma bu, heç də yaxşı hal deyil. Bu gün Türkiyədə 100 min erməni yaşayır. Bizim öz erməni vətəndaşlarımızdan başqa, minlərlə erməni gəlib Türkiyədə müxtəlif işlərdə çalışır, pul qazanırlar.

***Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri mediaya açıqlamasını belə tamamlayıb:*** “Uzun illərdir Ermənistan iqtisadi böhrandadır və bu gün də böhran davam edir. Müsəlman bir türkün təbiətində isə heç zaman dinc və günahsız insanları öldürmək olmayıb və olmayacaq da. Bu gün, guya, türklərin birləşib erməniləri öldürməsi barədə Ermənistanın yalanlarını dünyaya yayanlara qarşı Azərbaycan və Türkiyə diasporu birlikdə mübarizə aparır. Bölgədə sülhün bərqərar olması üçün Ermənistan yalana və işğala son qoymalıdır. Bütün Azərbaycan xalqına, azərbaycanlı bacı-qardaşlarıma sevgilərimi və hörmətlərimi çatdırıram. Yaşasın Azərbaycan! Yaşasın Türkiyə! Yaşasın Azərbaycan və Türkiyə qardaşlığı!”.

***Hazırladı:***
***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***